# DAĞDAN DƏNİZƏ DOĞRU SÖZ YOLU

**Şəddat CƏFƏROV**
*iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru,*
*Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər*
*Birliklərinin üzvü,*
*Beynəlxalq Yazarlar Birliyinin üzvü*

*"Kredo"* qəzetinin mənim ədəbi taleyimdə xüsusi yeri var. Uzun illər Azərbaycanın söz-sənət adamları ilə ünsiyyətim axır ki, şəxsi dostluq münasibətləri səviyyəsindən çıxdı. Heç özümün də xəbərim olmadı ki, bu münasibətlər necə yaradıcılıq əlaqələrinə çevrildi. Əlbəttə, burada təəccüblü bir şey yoxdur. Kitablarını çap etdirmək istəyən müəlliflər öz istəkləri ilə bizim mətbəəyə gəlir, naşir kimi mənə müraciət edirlər. İndi əlyazma nüsxəsi adlandırdığımız kompüter variantını da hələ çapdan əvvəl mənə təqdim edirlər. Bu zaman aramızda kitabın məzmunu, janrı ilə bağlı söhbətlər olur. Hətta müəlliflər kitablarının xüsusi maraq doğuracaq səhifələrinə diqqətimi cəlb etməyə çalışır. Mövzu haqqında ətraflı məlumat verirlər. Xüsusilə şairlərin, nasirlərin, publisistlərin kitablarını həmişə maraqla qarşılayıram. Zövqümü oxşayan səhifələri nəzərimdən keçirirəm. Bu zaman kitab məni özünə bağlayırsa, bütünlüklə oxuyur, əvvəlcə ümumi qənaətimi kitabın müəllifinə də bildirirəm. Bu zaman istər-istəməz kitabın annotasiyasını da yazmaq mənim üzərimə düşür.

Müxtəlif müəlliflərdən, müxtəlif təşkilatlardan gələn kitabların istər bədii, istərsə də, elmi-publisistik mahiyyətində fərqlər var. Ancaq şair-publisist dostum Əli Rza Xələflinin redaktəsi, müəllifliyi ilə hazırlanan kitablar nəşr baxımından mükəmməlliyi ilə seçilir, bu da məni çox razı salır.

Kitabın nəşr prosesi çox diqqət tələb etdiyi kimi, çox da zəhmətdən keçir.

Ən müxtəlif səbəblərdən qarşıya çıxan problemləri birlikdə müzakirə edirik. Bu da mənə nəşr üçün götürdüyüm kitabı dərindən mənimsəməyimə səbəb olur.

Kitablar vasitəsi ilə ədəbi mühitin müxtəlif adamlarını yaxından tanıyır, bəzən heç üzünü görməsəm də, rəğbətimi müxtəlif yollarla bildirməyə çalışıram.

Dostum Əli Rza Xələflinin növbəti bir kitabı haqqında söhbət açmaq istəyirəm. Bu, Siyəzəndə yaşayıb-yaradan şair-pedaqoq Nəcməddin Mürvətovun yaradıcılığını özündə ehtiva edən *"Dağdan dənizə doğru"* (Bakı 2018) kitabıdır. Bu kitab 250 səhifəlikdir. 125 səhifə, yəni kitabın düz yarısı Əli Rza Xələflinin Nəcməddin Mürvətovun yaradıcılığı haqqında ədəbi düşüncələrdən, publisistik qeydlərdən ibarətdir. Əli Rza Xələfli kitabın II hissəsində Nəcməddin Mürvətovun yaradıcılığının ədəbi məziyyətləri haqqında ayrı-ayrı müəlliflər tərəfindən yazılmış qeydləri də oxuculara təqdim edir. Görünür, elə bu səbəbdən o, kitabda öz müəllifliyini *"tərtibçi müəllif"* ünvanı ilə təsdiqləyir.

Beləliklə, Nəcməddin Mürvətovun həm portretini, həm də yaradıcılığını ehtiva edən *"Dağdan dənizə doğru"* kitabı ərsəyə gəlmiş olur.

Nəcməddin Mürəvtov Xızının dağlıq hissəsində yerləşən kənddə doğulub. Sonralar yaşayış yerini Siyəzənə, əgər belə demək mümkünsə, dəniz sahilinə dəyişib. Ancaq o, doğulduğu yeri, yurdu unutmayıb. Yaradıcılığının ən maraqlı səhifələri onun yurd yeri düşüncələrini ehtiva edir, yəqin ki, elə kitabın adı da Nəcməddin Mürvətovun həyat yoluna istinadən *"Dağdan dənizə doğru"* adını alıb.

Bəs Nəcməddin Mürvətovun kimdir? Onun yaradıcılıq yolu hansı məziyyətləri ilə fərqlənir? Həyatının əlamətdar tarixləri hansı məqamlarla yadda qalır? Bu suallara cavab vermək üçün elə *"Dağdan dənizə doğru"* kitabına müraciət etmək bəs edərdi. Əvvəlcə mənim qələmə aldığım annotasiyada oxuyuruq: *"Şair-tədqiqatçı Əli Rza Xələflinin tərtibçi-müəllif hüququnda oxuculara təqdim etdiyi "Dağdan dənizə doğru" kitabı şair Nəcməddin Mürvətovun həyat və yaradıcılığından bəhs edən məqalələr toplusudur. Kitab şair Nəcmədin Mürvətovun həyatının və yaradıcılığının müxtəlif dövrlərini (əsas fraqmentlərini) əhatə etdiyindən obrazı inkişafda verə bilir, sənətkarın mənəvi mühiti haqqında dolğun təsəvvür yaradır. Kitabı oxuyacaq hər kəs şair, esseist, publisist və pedaqoq - ictimai xadim Nəcməddin Mürvətovu daha yaxından tanıyacaq və sevəcəkdir"*. Bu qeydlərdən göründüyü kimi "Dağdan dənizə doğru" kitabı onun yaradıcılıq taleyi haqqında zəngin məlumat mənbəyi kimi diqqəti cəlb edir. Bu kitabı az-çox diqqətlə oxuyan hər kəs Nəcməddin Mürvətovun zəngin yaradıcılıq yolu ilə tanış olacaq və biləcək ki, annotaisyada qeyd olunduğu kimi o təkcə görkəmli müəllim deyil, həm də tanınmış şairdir, esseistdir, publisistdir. Bir sözlə, həyatın ən müxtəlif təzadlarına, dövrün, zamanın ən müxtəlif mənzərələrinə münasibət bildirir, bir sözlə, həyata gendən baxmır.

Nəcməddin Mürvətov qaynar həyatın içərisində olduğu üçün zamanın ən müxtəlif rənglərini diqqətlə və yaxından müşahidə etmək imkanına malikdir.

Doğrudur, şairin, sənətkarın kimliyi onun yaradıcılığı ilə daha çox görünür. Ancaq şəxsiyyətin və həm də sənətkarın həyat yolu konkret tarixi faktlardan yaratdığı əsərlərin, çap etdirdiyi kitabların mahiyyətindən keçir. Ona görə də biz şairin yaşam yolu haqqında dəqiq faktları da oxuculara çatdırmağı özümüzə borc bilirik.

Azərbaycan Yazıçılar Birliyinin üzvü, Əməkdar müəllim Nəcməddin Tacı oğlu Mürvətov 1953-cü ildə Dəvəçi (indiki Siyəzən, keçmiş Xızı) rayonunun Yuxarı Ələz kəndində anadan olmuşdur. *"İlk sözüm" (1997), "Etiraf" (2001) və "Varım-dövlətim" (2003), "Dünyamıza sözüm var" (2005), "Həqiqət axtarıram" (2006), "Yaxşılar azalmasın" (2008), "İnam zəfərə aparır" (2009), "Ömür adlı payım varmış" (2011), "Ürəklərin sifarişi sözümdə" (2012), "Bircə söz de, şeir yazım" (2014), "Nə verdim ki, dünyaya..." (2014), "Səsim, ünüm, harayım..." (2015), "Dünyamızın zərrəsiyəm" (2016) və "Şairdə sirr olmur..."* kitablarının müəllifidir.

Hazırda Siyəzən şəhəri C.Cabbarlı adına 1 nömrəli tam orta məktəbin direktoru vəzifəsində çalışır. Pedaqoji sahədəki uğurlu fəaliyyətinə görə bir çox dövlət təltiflərinə layiq görülüb. Yazıları müxtəlif mətbuat orqanlarında müntəzəm çap olunur.

Əli Rza Xələfli tədqiq etdiyi, öyrəndiyi və haqqında yazmaq istədiyi müəlliflərin yaradıcılığına təkcə tənqidçi-publisist kimi yox, həm də şair həmkarı kimi münasibət bildirir.

*"Tərtibçi-müəllifdən"* adı ilə *"ön söz"*ünə Əli Rza Xələfli dərin fəlsəfi ümumiləşdirmə ilə bir dördlüyün epiqraf gətirir:

Sözdü canın, ruhun, dildi yaddaşın,
Vətəndi, torpaqdı sənin qardaşın.
Adlayıb üstündən keçmə, bir dayan,
Yazıdı, kitabdı yurdda hər daşın.

Göründüyü kimi bu dördlükdə yaradıcı insana münasibət var. Sanki hər bir yaradıcı şəxsin mənəvi missiyası bu misralarda öz əksini tapır. Amma eyni zamanda bu dörd misranın içərisində çox aydın bir portret var. Bu, Nəcməddin Mürvətovun portretidir. Müəllif şair həmkarını dəqiq xarakterizə edir. Onun canının, ruhunun söz olduğunu, yaddaşının dil olduğunu bildirməklə bərabər vətəni və torpağı da ədəbi qəhrəmanının qardaşı kimi göstərir. Zənnimizcə, doğru qənaətdir. Nəcməddin Mürvətovun yaradıcılığı ilə tanış olan hər kəs bilir ki, onun yaradıcılığının əsas obrazı elə vətəndir, torpaqdır. O bütün əsərlərini vətəndən və torpaqdan aldığı ilhamla yazıya gətirib. Fikir və düşüncələri torpaq və vətən obrazları ilə canlanıb. Ancaq Xələfli dördlüyün sonrakı iki misrasında şairə sanki xəbərdarlıq edir. Onun mənsub olduğu vətənin hər bir daşı sadəcə təbiət cismi deyil. Bu daşların hər biri ayrılıqda bir yazıdır, kitabdır.

Bundan sonra müəllif şair Nəcməddin Mürvətovun yaşadığı mühitə diqqəti cəlb edir. Onun yazı yolunun haradan, necə keçdiyinə sözü ilə rəng verir: *"Siyəzəndə bir şair yaşayır - Nəcmədin Mürvətov adında. Və əgər Siyəzən bir əyalətdirsə, baxmayaraq ki, Bakıdan nə qədər uzaqlıqdadır, demək, onun çiyinlərində bütöv məmləkətin, təmsil elədiyi xalqın, özüylə, sözüylə yaşatdığı dilin ağrı-acısı ilə birgə və halkə çoxlarımızın şərik olmadığımız bir əyalət yükü də var. İstəsə də, istəməsə də könlünü sözə verənlərin, ruhunu, varlığını poeziya adlı bir hakimin qulluğuna təslim edənlərin əbədi missiyasıdır bu. Bəla orasındadır ki, Nəcməddin Mürvətov bir şair olaraq aldanaydı, sözün mənəvi ağrısını duymayaydı, sözü ruhunda əkib-becərə bilməyəydi. Bax bu, sözdə, sənətdə "papağı günə yandırmaq" olardı"*. Təkcə elə bu parça göstərir ki, Əli Rza Xələfli həm də ədəbi obraz olaraq qəbul etdiyi, haqqında yazdığı Nəcməddin Mürvətovu bədii epitetlərlə qavrayır. Bədii-poetik düşüncələrlə onun bir insan və bir şair kimi portretini əlvan boyalarla çəkməyə çalışır. Əslində bu müəllifin üslubudur, yanaşma tərzidir. Mövzunun - həm də mətnin oxucu yaddaşında iz buraxması üçün ədəbi qəhrəmanı bədii fonda verməyə çalışır. O qeyd edir ki, Nəcməddin Mürvətovun çoxsaylı kitablarında sözün boyunu sevən, onun doğuluş əzablarının ağrısını çəkə-çəkə yazıb-yaradan söz sahibini görür. Və belə bir obrazla yaradıcılıq mühitində görüşündən fərəh duyur, sevincini gizlətmir.

Nəcməddin Mürvətovədəbi mühitin qaynarlığına televiziyadan gəlib.

Elə mən də Nəcməddin Mürvətovu ilk dəfə Avdı Qoşqarın çəkdiyi ədəbi sujetdən görmüşəm. Bundan sonra onun yazılarını dəfələrlə *"Kredo"* qəzetindən oxumuşam. Hiss etmişəm ki, Nəcməddin Mürvətov görkəmli bir pedaqoq kimi maarif sahəsindəki fəaliyyətində təqdir olunmağı ilə kifayətlənməyib. Bədii yaradıcılığa yardımçı bir iş kimi baxmayıb. Bütün canı ilə, qanı ilə sözünə poetik nəfəs verdikcə mənəvi rahatlıq tapıb.

Nəcməddin Mürvətov həm də fəal ictimai xadimdir. Müxtəlif telekanallarda və radio dalğalarında maraqlı müsahibələrlə çıxış edir. Yaradıcılıq yolundan səmimiyyətlə bəhs edir: *"Zamanzaman yaşadığı dövrün ədəbi təltifləri - nə "Maarif əlaçısı" döş nişanına, nə "Tərəqqi" medalına sahib olması, nə də "Əməkdar müəllim" fəxri adı onun sözünün üstünə kölgə sala bilmir. Ruhundakı böyük vətəndaş qəlbinə hakim olan söz bütün ucalığı ilə təltiflərdən, tərifləndən yuxarıda durur.*

*...Qəlbini sözə vermiş şair bütün məqamlarda "ruhum kök üstədir" deyə bilər və haqlıdır. Sevdası, sevgilisi söz olan şair ruhunun çağırdığı yerə "gəlirəm" deyər. Haqlıdır, sözü eşidən adam üçün inamsızlığa yer yoxdur. Şair harda varsa, orada söz var"*. Bu qeydlər bizə artıq dəqiq ünvandır. Elə mənim özüm də Əli Rza Xələfli kimi tərəddüdsüz deyirəm ki, sözü özünə ünvan bilən bir şair haqqında danışıram.

Kitabda Əli Rza Xələflinin Nəcməddin Mürvətovun yaradıcılığına işıq salan 10 yazısı oxuculara təqdim olunur. Kitabın müəllifi Nəcməddinin şair obrazını onun öz yaradıcılığı əsasında təqdim edir. Amma yeri gəldikcə klassik fəlsəfədən maraqlı örnəklərə də istinad edir. *"Ucalığa çağırış missiyası"* adlı məqalənin əvvəlində görkəmli alman filosofu Hegeldən maraqlı bir mətni yazıya epiqraf kimi gətirir: *"...Savadlı insan üzün və jestlərin az hərəkətliyi ilə savadsız adamdan fərqlənir. İçindəki ehtiraslarının tufanını savadlı adam bəlli dərəcədə yatırtdığı kimi özünü zahirən sakit tərzdə də saxlamağa və öz duyğularının orta ölçüdə ifadə olunmasına əməl edir.*

*... Savadlı insanın üz hərəkətlərinin və jestlərinin israfçılığına ehtiyacı yoxdur. O öz danışığında dəyərli və çevik, özünüifadə vasitəsi əldə edir; çünki dil təsəvvürlərinin bütün dəyişkənliklərini bilavasitə qəbul etməyə və ötürməyə qabildir"*. Bu qeydlər Hegelin *"Ruh fəlsəfəsi"* əsərindən əxz olunub. Zənnimizcə, uğurlu müqayisədir və asanlıqla Nəcməddin Mürvətov obrazına uyarlana bilər.

*"Ucalığa çağırış misisyası"* məqaləsində Nəcməddin Mürvətovun *"Nə verdim ki, dünyaya"* kitabı (2014) haqqında əhatəli söhbət açılır. Bu kitabda Nəcməddin Mürvətovun bir şair kimi heyrətindən doğulan şeirlər daha çox diqqətə çəkilir. Xalq artisti Ələddin Abbasovun (Cahandar ağa obrazının ekran təcəssümü) kişi xarakterinə ekranda verdiyi həyat, müğənni Xumar Qədimovanın *"Qəmərim, ay qəmərim"* mahnısının yaratdığı təəssürat... onun üçün poeziyaya çevrilmə vasitəsi olur. Şair bu tipli şeirlərində milli düşüncəyə təsir məqamlarını dəqiq sezir və onu poetikləşdirir. Nəcməddin Mürvətovun yaradıcılığı çoxcəhətli çalarları və rəngləri ilə həmişə oxucunun diqqətini cəlb edib. Görkəmli şairimiz İlyas Tapdıq da onun həyatımızın müxtəlif sahələrinə həsr olunmuş şeirlərinə çox səmimi münasibət bildirib; bundan başqa Nəcməddin Mürvətovun həyatımızın əyər-əskiklərini qamçılayan şeirləri də az deyil. İlyas Tapdıq yazır: *"Bu şeirləri qələmə aldıqca onun ürək ağrıları keçirdiyi açıq-aydın hiss olunur.*

*Davamı 9-cu səhifədə*

# DAĞDAN DƏNİZƏ DOĞRU SÖZ YOLU

*Əvvəli 8-ci səhifədə*

*Dünyanın əşrəfi olan insanı yaradının ona verdiyi missiyanı ləyaqətlə həyata keçirməyə səsləyir. Nahaq iş tutanlara, sözü ilə əməli düz gəlməyənlərə, ikiüzlülərə, yaltaqlara, nadanlara öz sərt münasibətini bildirir. Zərrə qədər də güzəşt etmir. Düzəlmək imkanı olanlara isə ağsaqqal öyüdü verir, onların səhvlərinin ucbatından peşma olduğunu görmək istəmir".* İlyas Tapdıq Nəcməddin Mürvətovu şair kimi yaxından tanıyıb, onun yaradıcılığını yaxından müşahidə edib. O müşahidə edib ki, Nəcməddin Mürvətov bəzən öz şeirlərində məsləhətçi, nəsihətçi tərzi ilə fikirlərini ifadə edir. Doğrudur, indi deyirik ki, nəsihətçilik zamanı deyil. Amma İlyas Tapdıq Nəcməddin Mürvətovun yaradıcılıq məziyyətlərindən danışanda onun bu tipli şeirlərinin haradan, nədən qaynaqlandığını də dəqiq göstərir: *"Bu cür məsləhət həm N.Mürvətovun müəllim təbiətindən irəli gəlir. Xalqa, vətənə yararlı övlad olmağı tövsiyə edir: "İstəyirsən sevilmək, insanları sev onda", - deyir. Hər cür sünilikləra qarşı barışmaz mövqe tutur. Hamını yüksək amallarla yaşamağa, başqalarının əməyini vətən, xalq qarşısında xidmətlərini qiymətləndirməyə, həqiqəti uca tutmağa çağırır. Harada yaxşı nə görürsə, sevinir, onun vəsfinə tələsir. Doğma Azərbaycanımızın uğurları, nailiyyətləri ilə öyünür. Ölkədə aparılan abadlıq, quruculuq işlərinə xüsusi fərəh duyması misralarına köçür".* Nəcməddin Mürvətovun həmin kitabına *"ön söz"*ü İlyas Tapdıq yazıb və o öz qeydlərində Nəcməddin Mürvətovun istedadından da ürəklə bəhs edir.

Nəcməddin Mürvətovun çox istedadlı bir esseist olduğunu da qeyd etmişik. Elə *"Nə verdim ki, dünyaya"* kitabında onun *"Düşüncələr"* ümumi başlığı altında çox maraqlı esselərinə də rast gəlirik. Əli Rza Xələfli Nəcməddin Mürvətovun *"İnsan-yarpaq"* adlı essesindən maraqlı bir parçanı oxuculara təqdim edir:

*"Bəhanə axtarır elə bil yarpaqlar,*
*Ağacın budağından qırılıb yerə düşməyə.*
*Saralıb-soulublar, büzüşüblər,*
*Bəziləri lap qaralıb da.*
*Son nəfəsdə olan misralara bənzəyirlər.*
*Aralanıram ağacdan,*
*Bəhanə verməməyə yarpaqlara.*
*Səbəb olmamağa, onların qırılıb*
*Fırlana-fırlana torpağa düşməsinə.*
*Aralanıram ağacdan həyat və*
*Ölüm haqqında düşüncələrlə.*
*Qarışır fikirlər başımda bir-birinə:*
*Xəzan-ölüm, ölüm-xəzan-həyat...*
*İnsan-Yarpaq".*

Əli Rza Xələfli bu dəyərli qeydlərini çox sərrastlıqla *"Ucalığa çağırış missiyası"* adlandırır. Həm müəllimliyi, həm də şairliyi Nəcməddin Mürvətovun yaradıcılıq yolunu onun vətəndaşlığı ilə sıx bağlayır. Satirik şeirlərində tənqidi motivlərlə müşayiət olunan yazılarında sarkazm, güclü tənqid onun mövqeyinin ifadəsinə çevrilir. Hətta bir çox hallarda biz onu Azərbaycan satirik poeziya məktəbinin qüdrətli nümayəndəsi Sabirin davamçısı kimi görürük. Elə *"Nə verdim ki, dünyaya"* kitabında da Xələflinin qeyd etdiyi kimi o, Sabir ədəbi məktəbinin davamçısı kimi özünü təqdim edir. Xələfli yazır: *"Nəcməddin Mürvətovun çox maraqlı nəsr dili var. Poetik, rəvan, haracan desən canlı. "Nə verdim ki, dünyaya" kitabında əsas bölümlərdən birinə toplanmış əsərləri onun canlı nəsr dilinin mənzərəsini kifayət qədər qavramağa, onun nəsr imkanlarını təsəvvür eləməyə qədərincə əsasdır. Məsələn, bir neçə cümlədə daha bir məntiqi mühakimə: "Anlamır, başa düşmür ki, tamam başqa-başqa adamlarıq. Dostları ilə dost, düşmənləri ilə düşmən olmağımı istəyir. Dostunu, düşmənini tanımaya-tanımaya. Ay sən özün öləsən. Günümə bax ey!". Burada hər şey yerli-yerindədir. Qarşı tərəfi bütün əhatəliyi ilə, mənəvi şikəstliyi kəm-kəsiri ilə görə bilirik. İnsanın aşağılığının dərəcəsiniqədərincə təsəvvür edirik".* Məlumdur ki, tənqid hər kəs tərəfindən səmimi qarşılanmır, başqa sözlə, tənqid atəşinə tutulan şəxs qələm sahibinə qərəzli münasibətini asanlıqla cilovlaya bilmir. Bu da o deməkdir ki, Nəcməddin Mürvətov da mənəvi babası Sabir kimi cəmiyyət tərəfindən başı sığallanan şair deyil. O da tənələrə və təqiblərə məruz qalır.

*"Dağdan dənizə doğru"* kitabında Nəcməddin Mürvətovun şair taleyi onun vətəndaş taleyi ilə müvazi əks olunur. Görünür, şair üçün vətəndaşlıq mövqeyi də əsas keyfiyyətdir. Vətəndaş olmayan şairin yaratdıqları vətənin daşına, yəni yaddaşına yazıla bilməz.

Müəllif məqaləsinin sonunda (onu da qeyd edək ki, *"Ucalığa çağırış missiyası"* məqaləsi 13.05.2015-ci ildə yazılıb və həmin ərəfədə də *"Kredo"* qəzetində dərc olunub) bir daha Hegelin düşüncələrinə ötəri də olsa, qayıdır. Amma Nəcməddin Mürvətovun janr müxtəlifiyyi ilə qələmə alınmış yazılarına ümumi münasibət bildirməsi fonunda bu qeydlər bizim də mənəvi məmnunluğumuzu təmin edir: *"Kitabda toplanmış nəsr nümunələri çox aydın şəkildə deyir ki, Nəcməddin Mürvətov ədəbi mühitə daha bir görünməyən tərəfdən açıla bilər. Zəngin daxili aləmində onun çox dəyərli hekayələri, povestləri, zamanın tələbləri çərçivəsində yığcam romanları ehtiyatdadır. Yalnız yazılmağı gözləyir. Nədənsə hansı daxili-mənəvi əlaqənin təsirilədə N.Mürvətovun yaradıcılığının sərf-nəzər etmək istəyəndə gözlərimin önündə Hegelin "Savadlı insan" obrazı canlandı. Bu obrazla mən istedadlı adam, istedadlı şair, ümumiyyətlə, istedadlı sənətkar arasında yaxınlıq, doğmalıq, bəlkə də eyniyyət gördüm. N.Mürvətovu ekrandan, efirdən də dinləmişəm. Onu sakit və təmkinlə, fəqət tükənməz bir ilhamla çağlayıb gələn düşüncələrinin sözlə ifadəsini, şeirlərini də dinləmişəm".* Nəcməddin Mürvətov təbiət etibarı ilə coşğun adamdır. Onun özü də etiraf etdiyi kimi bəzən müsahibinin bircə sözü də bəs eləyir ki, fikirlərini ümumi axara salsın və şeirə çevirsin.

*"Dağdan dənizə doğru"* kitabında II yazı *"Ruhun ahəngi"* adlanır. Müəllif bu yazını 24.06.2015-ci ildə qələmə alıb.

Əli Rza Xələflinin N.Mürvətov haqqında silsilə yazılarının janr müxtəlifliyi də diqqəti cəlb edir. Onun məqalələri əsasən ədəbi-tənqidi qeydlər kimi yazılsa da, başqa janrlarda da qələmə alınmış yazıları diqqəti cəlb edir. Elə *"Ruhun ahəngi"* yazısında olduğu kimi. Bu yazı nisbətən kiçik həcmlidir, özü də məktub janrında yazılıb. Baxmayaraq ki, məktub janrında yazılıb, burada da müəllif şair Nəcməddin Mürvətovun yaradıcılığına xüsusi diqqət ayırır.

Amma hər halda Əli Rza Xələfli N.Mürvətovun sənətini, onun dəyərli, poetik nəfəsini maraqlı epitetlərlə oxucu yaddaşına yazır. Məktub janrının tələblərinə uyğun olaraq qeydlər belə başlayır: *"Əzizim Nəcməddin, son dəfə göndərdiyin şeirləri təkcə oxumadım, həm də ruhundan gələn səslər kimi dinlədim. Çünki sənin şeirlərində lirik mənin duyğuları canlıdır, səslidir. Ona görə də mənə elə gəldi ki, hər bir şeirin özündə sənin səsini eşidirəm. Ümumilikdə Azərbaycan poeziyasını, tariximizi özündə ehtiva edən mənəvi dəyərlərimizi rəng, ilmə təhərində qoruyub-saxlayan Şeyx Səfiəddin xalçasına bənzətməli olsaydım, bu xalının, bəlkə də ən göz oxşayan butalarından biri də "Sənin şeirlərindir", - deyərdim. Çünki qabarıq və demək olar ki, Azərbaycan şairləri üçün xarakterik olan tarixilik, vətənsevərlik mahiyyəti sənin şeirlərində əsas yük - aparıcı qüvvə kimi daşınmaqdan başqa, həm də oxucularına - bütövlükdə müasirlərimizə kövrək bir çağırış da var. Boynu bükük butanın sevgi, həsrət çağırışı kimi".* Bu qeydlərdə də müəllif Nəcmədin Mürvətovu poeziyamızda xüsusi yeri olan qələm sahibi kimi xarakterizə edir. Ümumiyyətlə, Xələflinin qeydlərində maraqlı bənzətmələr olur. Burada da o, Azərbaycan poeziyasını dünya xalçaçılığının incisi sayılan Şeyx Səfi xalçasına bənzədir. Nəcməddin Mürvətovun bu xalçanın rənglərinə uyğun yerini göstərir.

Məlumdur ki, N.Mürvətov poeziyamızda ənənəviliyin qatı tərəfdarı kimi tanınır. Lirik şeirlərində Səməd Vurğun, Bəxtiyar Vahabzadə ənənələrinin davamçısı kimi çıxış edirsə, satirasında biz onu Sabir yolunun varisi kimi görürük. Hətta esselərində də görkəmli esseist Asif Ata yolunun təsiri açıq-aydın duyulur. Publisistikada sət və aydın həqiqətləri yazmaq baxımından Sabir Rüstəmxanlını xatırladır. Bu məsələlərə ümumiləşdirilmiş bir münasibət məktubda kifayət qədər aydın verilib: *"Əlbəttə, kimlərsə bu iddiadaola bilər ki, sənin yaradıcılığın ənənəvilikdən kənara çıxa bilmir. Bu gün dəbdə olan modern, postmodern forma və məzmun tələbləri də ortaya gələ bilər. Məzmun mahiyyəti burada obraz kimi qavranılır. Ancaq mən poeziyada şairin ən böyük fədakarlığını, onun ənənəvi kök üstə oxucunun ruhunu oxşaya bilən əhvalda - bu əhvalı yaratmağında görürəm. Və bunu kimsə dana bilməz ki, sənin ənənəvi ruhda yazılmış şeirlərdə həqiqi sevgi var. Bu, şairin içindən keçən ağrıqarışıq bir sevgidir. Ruhunu vətənə təslim etmiş, varlığının bütövlükdə xalqı üçün sinəsindən qoparılmış ürəyi kimi ovcunun içində günəşin qabağına tutub işığa çevirən bir şairin hünəri, gücü, sonsuz mənəvi istəkləri var bu şeirlərdə".* Doğru olaraq Ə.Xələfli Nəcməddin Mürvətovun bütün varlığının söz üzərində köklənməsini təsdiq edir. Elə buradaca onun ruhunun poeziyaya nə qədər bağlı olduğunu bir daha xatırladır. Və yenə də yazır ki, müsahibinin bircə sözü də bəs eləyir ki, Nəcməddin Mürvətov yeni bir poetik örnəyini yaratsın.

Məqalə-məktub müəllifi Nəcməddin Mürvətovun həyatında poeziyanın yerini göstərərkən Dədə Camalın sözlərini xatırladır: *"Yaradıcılıq anları həyatın mənalı anlarıdır. Hələ üstəlik bu həyatı cəmiyyətə, insanlara, vətənə, təbiətə sevgi ilə yaşayasan".* Müəllif yazısına davam edərək maraqlı müqayisələr aparır. Vətənin nəbzini, xalqın ruhunu poeziyanın ritmi və ahəngi ilə müqayisə edir. Müəllif məktubunun sonunda yenidən Nəcməddin Mürvətova üz tutur: *"Şair Nəcməddin Mürvətov, sənin yeni yazıların işıqlığa çıxmaq üçün qəzetin üzündən keçəndə zamandan bizə miras qalmış soyad sonluğu kimi "ov" üzərində də mübahisə oldu. Bəlkə bundan sonra bu barədə də düşünəsən. Azərbaycan haqqında düşündüyün kimi, özünə cəhənnəm quran dünyanın özü haqqında düşündüyün kimi, saf, təmiz sevgilərlə süslənmiş poetik ruhun ifadəsi olan lirik şeirlərin, kövrək mahnılarla könlümüzü oxşayan, ruhumuzu dilə gətirən Elnarəni vəsf edən şeirinedəki saf insanlığa çağırış motivləri üçün qəlbindən, ruhundan pay ayırdığın kimi düşünəsən. Sən şairsən, Nəcməddin Mürvətov".* Əli Rza Xələfli N.Mürvətovun rəngarəng poeziyasını, söz-sənət örnəklərini təbiiliyinə görə xüsusilə təqdir edir.

Mən Nəcməddin Mürvətovun poetik kitabını da çap etmişəm. Təkcə bu kitabda verilmiş poetik örnəkləri deyil, onun zəngin yaradıcılığı ilə bütövlükdə də tanışam. Mən Nəcməddin Mürvətovu xalqın ruhu ilə nəfəs alan bir şair kimi tanıyıram.

*"İnsana sevgi"* (19.02.2016) məqaləsihəcm etibarı ilə kifayət qədər genişdişdir. Müəllif bu məqaləsini Nəcməddin Mürvətovun *"Səsim, ünüm, həyatım"* adlı kitabının məziyyətlərinə həsr edib. O, yazının mahiyyətini Nəcməddin Mürvətovun yaradıcılıq təbiəti ilə çox yaxından bağlayır. Hətta onun yaradıcılıq tərcümeyi-halı ilə həyatının nə qədər həmahəng olduğunu da oxucu nəzərlərinə çatdırmağı özünə borc bilir. Doğrudur, bu dövrə qədər Nəcməddin Mürvətovun kifayət qədər kitabları çap olunub. Özü də bu kitabların hamısında Nəcməddinin ilhamla qələmə aldığı yazılar toplanıb: *"Demək olar ki, bu kitabların hamısı (15-ə qədər kitab) nəfis şəkildə, xüsusi müəllif qayğısı və nəvazişi ilə ərsəyə gəlib və ən əsası da budur ki, hər misrada, hər şeirdə, hər poetik essedə onun könül çırpıntılarını, duyğulanmalarını görə bilirik. Nəcməddin Mürvətov kimi sinəsində od yanan şairlər haqqında deyirəm ki, o yazmaq istəyən, ancaq tanrının istedad vermədiyi kimsələrin də əvəzindən yazır. Sanki cəmiyyətin aclığı üçün, mənəvi məsuliyyətini yerinə yetirmək üçün yazır. Şairlik təkcə onun istedadının deyil, həm də missiyasının ünvanıdır. Həmyaşıdıq, o da mənim kimi Stalin kabusunun cismən dünyadan əl çəkdiyi ildə doğulub".* Müəllif 1953-cü ili təsadüfi xatırlatmır. Çünki bu dövrə qədər Azərbaycan ziyalıları necə dəhşətli ittihamlara və əzablara, işkəncələrə məruz qalıb - bunu hamımız bilirik. Mənə elə gəlir ki, Əli Rza Xələfli bununla şairin əsas missiyasının insana sevgi olduğunu diqqətə çəkmək istəyib.

Nizami Gəncəvi böyük humanist idi. O bütün möhtəşəm əsərlərində insan taleyinə münasibəti ön plana çəkirdi. Eləcə də Azərbaycan poeziyasının ən qüdrətli nümayəndələri insanı qorumağın yaradıcılıqda ən üstün tərəf olduğunu təsadüfi göstərmirdilər. Füzulinin də bütün yaradıcılığı insana sevgi üzərində qurulub. Nəsimidə də belədir. Elə XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələri də bu yolu seçmişdilər.

Demək, Nəcməddin Mürvətov diqqəti çəkən poeziyasında əsas xətt kimi insana sevgi hisslərinin təbliğini mənəvi mühitinin əsas şərti kimi qəbul edib.

Nəcməddin Mürvətovun yaradıcılıq yolu çox aydındır, başadüşüləndir. Çünki o, insanı tərənnüm edir, insan hisslərinin, duyğularının ən incə məqamlarınacan nüfuz edə bilir. Əslinə qalsa, elə *"Dağdan dənizə doğru"* kitabını yazdıran əsas mənəvi tələb də elə insana sevgi ilə bağlıdır.

İnsana sevgi bəşər nəslini qoumaq hissindən irəli gəlir. Faşizm ona görə nifrətə layiqdir ki, o, insana sebvgi hissini inkar edir. Biz bunu İkinci Cahan Savaşında da görmüşük, Birinci və İkinci Qarabağ müharibəsində də.

Düşünürəm ki, insana sevgini əsas amal kimi tərənnüm edən şairlərin hamısı vətənimiz uğrunda savaşda ordumuzla birgə olub.

"Dağdan dənizə doğru" kitabının məziyyətləri çoxdur və bu xüsusda qeydlərimi davam etdirmək fikrindəyəm.

*(Davamı 10-cu səhifədə)*

# DAĞDAN DƏNİZƏ DOĞRU SÖZ YOLU

*(Əvvəli 9-cu səhifədə)*

Azərbaycanın ayrı-ayrı bölgələrində yaşayıb-yaradan sənətkarlarımızın ümumən xalqımızın mənən zənginləşməsində xüsusi yeri var. Naxçıvanda Asim Yadigar, Xanəli Kərimli, Fərəc Fərəcov, Zeynalabdin Novruzoğlu, Qubada Ramiz Qusarçaylı, Mingəçevirdə İsmayıl İmanzadə, Qazaxda Barat Vüsal, Lənkəranda Yadulla Ağazadə, Qafar Cəfərli, Ağamir Cavad, Cəlilabada Bilal Alarlı, Meyxoş Abdulla, Əlirza Həsrət, Şabranda Zakir Bayramlı, Bayram Novruz, Məzahir Zeynal... beləcə bu siyahını xeyli davam etdirmək olar. Gəncədə, Beyləqanda, İmişlidə, Tovuzda, Gədəbəydə onlarca dəyərli söz sahibləri yaşayır və yaradırlar. Bu mənada Nəcməddin Mürvətov da Siyəzəndə yaşamağı ilə sübut edir ki, qələmin müqəddəs vəzifəsini paytaxtdan kənarda da qorumaq olar. Sözün missiyasını şərəflə daşımağın mümkünlüyünü onlar öz fədakarlıqları ilə sübut edirlər.

Demək, Azərbaycan ədəbiyyatını bölgələrdən kənarda təsəvvür etmək mümkün deyil. Ədəbiyyat tədqiqatçılarının - sözü-sənəti dəyərləndirərək tədqiq edən araşdırıcılarımızın bir işi də onları yaxşı tanımaq və yaxşı bərabər həm də xalqımıza yaxşı tanıtmaqdır. Zənnimcə, Əli Rza Xələflinin *"Dağdan dənizə doğru"* kitabı da elə bu baxımdan diqqəti cəlb edir. Kitabın müəllifi Nəcməddin Mürvətovun yaradıcılığını monoqrafik şəkildə tədqiq etməsə də, o, şairin yazıb-yaratdıqlarını demək olar ki, birər-birər nəzərdən keçirməklə mahiyyətə varır, şairin ədəbi mühitimizin zənginləşməsindəki yerini ədəbi faktlar əsasında müəyyənləşdirməyə çalışır.

*"Dağdan dənizə doğru"* kitabında 30-dan çox məqalə toplanıb. Bu məqalələrin demək olar ki, yarısı Əli Rza Xələflinin özünün qələmə aldıqlarıdır. Ancaq tərtibçi müəllif hüququ ilə hazırladığı kitaba dövrümüzün nüfuzlu qələm sahiblərinin Nəcmədin Mürvətov haqqında yazdıqlarını da daxil edir.

Əli Rza Xələfli Nəcməddin Mürvətovun yaradıcılığını kitabları ilə izləyir. Demək olar ki, hər kitaba həsr olunmuş məqalə burada toplanmış yazıların əsas məziyyətlərini üzə çıxarır. Onu da qeyd etmək lazımdır ki, Əli Rza Xələflinin bildirdiyi kimi Nəcməddin Mürvətov hər bir kitabını həyatının salnaməsi kimi nəşr etdirir. Yəni müəyyən müddət ərzində yazdıqlarını cəmləyir, kitabını çap etdirir. Bundan sonra isə növbəti mərhələ gəlir. Beləliklə o, bir çoxlarının istifadə etdiyi *"kitabdan - kitaba"* üsuluna əl atmır. Yəni hər kitabında biz onun orijinal yazılarını - yeni yaradıcılıq məhsullarını görürük. O yeri gəldikcə klassik ədəbi tənqidin dəyərlərindən də faydalanır. Hətta bu zaman ədəbiyyatımız, xüsusilə poeziyamız üçün təhlükəli ola biləcək meyillərə də münasibət bildirməkdən çəkinmir: *"Bu gün Azərbaycan poeziyası inkarolunmaz faktdır ki, qafiyəli nəsrə çevrilmək təhlükəsini yaşayır. Belə məqamlarda ilahi qüdrət öz gücünü göstərir, kimsənin hiss etmədiyi bir gəlişlə xilaskar meydana çıxır.Bir vaxt Rusiyanı belə bir bəladan Puşkin xilas etmişdi. V.Q.Belinski bu mənzərəni özünün ölməz ruhu ilə belə canlandırdı: "Puşkinə qədər olan rus poeziyamız məhz şərbətlə şirinləşdirilmiş acı dərman idi. Buna görədir ki, bu poeziyada ilham və yaradıcılıqla yazılmış həqiqi poeziya ancaq ara-sıra, ayrı-ayrı parçalarla parıldayırdı, bu parıltı isə dərin ritorika dəryasında qərq olurdu. Dil sahəsində, şeiriyyət sahəsində çox işlər görülmüşdü, poeziya üçün də az işlər görülməmişdi; lakin tam mənası ilə poeziya, yəni bu və ya başqa dünyagörüşünü inkişaf etdirərkən hər şeydən əvvəl poeziyalığında qalan bir poeziya hələ yox idi! Puşkin Rusiyada belə bir poeziyanın sirrini canlı surətdə aşkar edib göstərmək üçün yaranmışdı. Onun vəzifəsi poeziyanı incəsənət olaraq rus torpağı üçün həmişəlik elə fəth edib mənimsəmək idi ki, bundan sonra rus poeziyası hər cür cərəyanın, hər cür görüşün ifadəsi olmaq imkanını əldə etməklə bərabər, poeziyalığını itirmək və qafiyəli nəsrə çevrilmək qorxusu çəkməsin, - bunun üçün də, təbiidir ki, Puşkin müstəsna sənətkar olmalı idi" (V.Q.Belinski "Rus ədəbiyyatı klassikləri haqqında", Bakı-1954, səh.102). Sanki müasir Azərbaycan poeziyasının mənzərəsidir"*. Bir az diqqətli olsaq, dahi Belinskinin ədəbi düşüncələrinin müasir ədəbiyyatımızla səsləşdiyini görmək elə də çətin deyil. Belinski Puşkinin poeziya dəyərlərini qorumaq sarıdan xidmətlərini uca tutur. Zənnimcə, bu o deməkdir ki, yaşarı ənənələr elə həm də dəyərləri qoruyur.

Poeziya lap qədim zamanlardan bəri insanların ruhunu qanadlandırmaq vasitəsi olub. Düşünürəm ki, elə bu gün də belədir. Amma poeziyanı nəsrə doğru çəkmək nəsri poetikləşdirməkdən çox, poeziyanın özünü nəsrləşdirmək deməkdir. Əli Rza Xələfli doğru olaraq yazır: *"Kimsəyə acıq gəlməsin, ənənələri yaşadanlar var. Poeziyamızın qara çuxası olanlar da var. Ancaq poetik fikir axınınınəsr dili ilə yazmaq istəyənlər... Avropa üslubunun təsiri altında olanlar daha çoxdur. Bunların böyük əksəriyyəti də gənclərdir. Cazibəli Şərq poeziyası öz ruhunu Azərbaycandan çəkib apara bilər - Belinski ellinlərin fikrini xatırladır: "...Yunanlar, Homer poeziyasının insan ruhuna və qəlbinə göstərdiyi yenilməz təsirinin qüvvəsini ifadə etmək üçün, deyirdilər ki, Homer Afroditanın kəmərini oğurlamışdır..." (V.Q.Belinski 1954, səh. 102). Belinskinin fikrincə, bu kəməri Rusiya üçün Puşkin oğurlayıb. Bir qədər uzun görünən bu gəzişmələrlə demək istəyirəm ki, Sabirin, Şəhriyarın, Səməd Vurğunun, Rəsul Rzanın... "kəmərləri" öz "oğrularını" gözləyir. Mən klassik ənənələri qorumaq, yaşatmaq yolu ilə gedən şairlərin yaradıcılıq əzablarını daha yüksək qiymətləndirmək istərdim"*. Şübhəsiz, mən də bu qənaətlərlə razıyam.

Şair Nəcməddin Mürvətov həmişə ilhamına güvənir. Onun yazılarında poetik güc elə həm də şairin özünüifadə imkanlarını açır.

Nəcməddin Mürvətov özündən əvvəlki poeziya ənənələrinin ən yaxşı davamçılarından biridir. Xüsusilə onun yaradıcılığında Nəriman Həsənzadə kimi ustad bir şairin təsir gücü də kifayət qədər aydınlığı ilə görünür. *"Dağdan dənizə doğru"* kitabının müəllifi Nəcməddinin Azərbaycanın poeziya ənənələrini yaşatmasını sadəcə özündən əvvəlki ustadların təkrarı kimi görmür, onun poetik meyillərini yaşarı ənənələrin inkişafı kimi qiymətləndirir. Şair Nəcməddin Mürvətovun poeziya yolunda bu əzablara qatlaşmaq istəyi əslində qəlbinin hökmü ilə icra olunur. Nəcməddin Mürvətov səmimiyyətlə dolu lirikasında sanki qəlbinin səsini sözə çevirir. Xələfli doğru deyir: *"Hətta bəzən onun lirik şeirlərində ustad Nəriman Həsənzadə səmimiyyəti, sadəliyi oxunan andaca özünü göstərir. Əslində bu hal Nəcməddin poeziya çinarının öz köklərini yerin təkindəki saf suya, qarışıqsız qaynağa çatmasıdır:*

*"O, ya mən?" - qəlbimdə bu müqayisə,*
*Verir üstünlüyü çox zaman ona.*
*Yaşım uydurduğum sevgidən nəsə,*
*Şirin nağılları çatdırır sona.*

*Uduzdum, çəkilim geriyə həlkə,*
*Acı həqiqəti edim etiraf.*
*Yaşamaq yaxşıdı, ancaq bu kölgə*
*Çətin ki, zülmündə göstərə insaf.*

*Şair varlığındakı döyüşü, zəifin (yaxud haqsızlığa düçar olmuş taleyin) vurnuxmalarını, onun qəzəbini, kinini də açıb-ağartmaqdan çəkinmir.*

*Gah yerə baxırsan, gah da göylərə,*
*Hamıdan gizlənən nəzərlərinlə.*
*Bələndi varlığım qəmə, kədərə,*
*Süzürəm özümü qəzəblə, kinlə.*

*Zənnimcə, bu lirik ovqat, sevgi motivləri Nəcməddinin ruhundakı aşiqin nə qədər səmimi olduğuna və bu səmimiyyətin oxucuya qənaət üçün bəs edəcəyinə zəmanət verir. Əlbəttə, onun lirik ovqatdakı (xüsusilə sevgi motivli) şeirlərində səhv addıma görə sevgi ünvanına, yaxud haqsız olaraq araya girən rəqibə qınaqlar, səhv yoldan çəkindirmək istəyi ilə öyüdlər, nəsihətlər də var. Bu da onun klassik maarifçilik xislətindən, müasir pedaqoq təbiətindən irəli gəlir. Hətta onun qəzəbi bəzən aşıb-daşır, cilovunu gəmirən at kimi şahə qalxır və bu zaman mənzərə tam yadınlığı ilə özünü üzə çıxarır"*. Nəcməddin Mürvətov lirikasında da mübarizdir. Yeri gələndə lirik duyğulanmalarını kifayət qədər sərtləşdirə bilir. Mühitdə gördüyü əyər-əskiyi iynəli sözləri ilə misralara çevirir və bunula da öz mövqeyini bəyan edir.

Hər bir şairin mövqeyi həm də onun vətəndaş mövqeyidir.

Şair üçün vətəndaşlıq missiyasını sənətində nümayiş etdirməkdən çox bu missiyanın daşıyıcısı olmaq daha üstün şərəfdir. Elə bu səbəbdən biz Nəcməddin Mürvətovun cəmiyyətin mənəvi mühitinə kölgə salan amilləri tənqid etməsini elə onun vətəndaşlıq mövqeyinə sədaqəti ilə izah edə bilərik: *"Nəcməddin döyüşkən şairdir. Bəzən vuruşda kimin udub, kimin uduzacağını da unudur:*

*Halallıq istədin, verdim min kərə,*
*Səhvin, etirafın saysız-hesabsız.*
*Böhtana keçmisən indi, bax şərə,*
*Qoymursan günümü ötə əzabsız.*

*Səbir, təmkinimin həddi, sonu var,*
*Onlarla oynama, ehtiyatlı ol.*
*Gözlə abır-həya, versəm sərt qərar,*
*Sola sağ deyərsən, çaşıb sağa sol.*

*Amma həmişə belə olmur. Bir könül xoşluğu ilə çağırışları da az deyil. Özü yaxşı bilir ki, könüllərin duyğularla danışması üçün bir ucalıq məqamı var. Orada ancaq insanlıq, humanizm, sevgiyə açılan qapı bu qapıdan keçmək istəyənin intizarını çəkir. Ona görə də özünün ruhunun aram olacağı o ucalığı airflik məqamında bir könül sarayı kimi qurur"*. Beləliklə, Nəcməddin Mürvətov Azərbaycan mənəvi mühitini bir ocaq kimi, pir kimi qoruyur. Bu ocağa, bu pirə sədaqətini öz sözü ilə sübuta yetirir.

Nəcməddin Mürvətovun yaradıcılığının üstün cəhətlərindən biri də budur ki, onun təkcə lirik ovqatlı sevgi şeirlərində yox, elə ictimai məzmunlu şeirlərində də şair yaşantılarını, şair narahatlığını görə bilirik.

Həqiqətən şair dövrünün kəsir cəhətlərini, ictimai ziddiyyətləri görməsi, bunu poeziyasınd aəks etdirməsi onun öz xalqına xidməti kimi dəyərləndirilməlidir. Dahi Mirzə Ələkbər Sabir *"ey dərbədər gəzib ürəyi qan olan cocuk"* deyərkən məhz vətənin övladını ağır günə qoyan mühitə etiraz edirdi. Bu mənada Nəcməddin Mürvətov da poeziyanın müqəddəs missiyasından istifadə edərək Azərbaycan vətəndaşının taleyini ön plana çəkir. Biz onun vətən yanğıları ilə süslənmiş şeirlərində Azərbaycanın yaralarını kifayət qədər aydınlığı ilə görürük. Bu yaranın adı bütövlükdə Qarabağdır, vətən taleyidir. Azərbaycan mənəvi mühitinin çiçəklənməsinə zərbə vuran korrupsioner məmur-oliqarx sistemi, büdcəni talayanlar, bir sözlə, inkişafımıza əngəl olan tiplər onun yaradıcılığında ifşa obyektidir.

Şairin düşüncəsində yaşamaq həyat uğrunda mübarizə motivini ehtiva edir. Ona görə də Əli Rza Xələfli Nəcməddin Mürvətovun çox xarakterik bir şeirini ədəbi düşüncədən keçirir, sanki şairin həyat kredosunu həmin şeirin motivləri əsasında şərh edir: *"Şair Nəcməddinin daxili aləmini sonsuz səmimiyyəti ilə göstərən "Yaşadım" şeiri adı və motivi ilə xalq şairimiz Məmməd Arazın eyniadlı məşhur şeirini xatırladır. Ölçüləri, yeniliyi, mövzu yaxınlığı, həyata baxış çox oxşardır. Amma eyni şeir deyil... Bu, Nəcməddinin özünün - şair Nəcməddinin, XXI əsrin adamının yaşamağıdır. Oxuyaq "Yaşadım" şeirini:*

*Burulğanlı həyatımda çox zaman,*
*Ömrü əl-qol ata-ata yaşadım.*
*Az sevindim, olub tez-tez peşiman,*
*Boğularaq bata-bata yaşadım.*

*Öz payımı halal aldı uğurum,*
*Çoxlarını xofa saldı uğurum.*
*Əvvəl-əvvəl bir xəyaldı uğurum,*
*Min əzaba çata-çata yaşadım.*

*Yaratmağa həvəsləndi ürəyim,*
*Çətin tapdım nə oldusa gərəyim.*
*Vallah, inan, daşdan çıxdı çörəyim,*
*Hey canımı sata-sata yaşadım.*

*İmkanlıydım çox şey verəm həyata,*
*Qane oldum aza, ala-babata.*
*Nə başladım; söylədilər: "Bu xəta",*
*Laqeydləşib, yata-yata yaşadım.*

*Nəcməddinəm, çox görsəm də zilləti,*
*Sevdim eli, yurdu, xalqı, milləti.*
*Ruha hərdən aşkar, hərdən xəlvəti,*
*Yağ, bal, şəkər qata-qata yaşadım.*

*Bəlkə kimsə irad tutar ki, bu şeirin bircə bəndi də şairin "yaşadım" ovqatını göstərməyə bəs edərdi. Mənsə deyərəm ki, şeirdə bütöv insan mənzərəsini gördüyümdən onu kəsməyə, daha çox təəssürat yaradan bəndə üstünlük verməyə qıymadım. Çünki bu şeir bütövlükdə bir qələm gücünə, bir sinif jurnalına güvənib yaşayan ziyalı dünyasının tablosudur. Şair qəsdən ağrı yaratmaq üçün yuxarıda dediyimiz kimi qondarma ifadə axtarmır. Yaşamağın hansı əzablardan keçdiyini göstərmək üçün özünün yaşantılarına istinad etmişdir. Məndən soruşsaydılar ki, bu şeirin dəyəri nədir? İzahsız deyərdim ki, elə bu şeirə görə Nəcməddinin haqqın (dünyanın) zərrəsi olduğuna inanmaq olar"*. Bəli, həqiqətən də şeir özü Nəcməddinin kimliyinə, onun necə yaşamağına sözün həqiqi mənasında işıq tutur. Azərbaycan ədəbi-mənəvi mühitinin görkəmli simaları Nəcməddin Mürvətovu həmişə öz sıralarında, öz yanlarında görüblər.

***(Davamı 11-ci səhifədə)***

# DAĞDAN DƏNİZƏ DOĞRU SÖZ YOLU

*(Əvvəli 10-su səhifədə)*

Əsas da Nəcməddin Mürvətovun özü həmişə ədəbi mühitin qaynar təbiətini öz əhatəsində yaratmağa, tənzimləməyə çalışıb. Elə bu səbəbdən də onun dəyərli yaradıcılığı görkəmli sənətkarlarımız tərəfindən sevgi ilə qarşılanıb.

Kitabda görkəmli şair İlyas Tapdığın, dövlət mükafatı laureatı, professor Nizaməddin Şəmsizadənin, şair-publisist Səyavuş Sərxanlının, tele-publisist, yazıçı Sadıq Elcanlının, görkəmli tənqidçi-ədəbiyyatşünaslar Vaqif Yusifli və Qurban Bayramovun, digər onlarca müəllifin yazıları da yer alıb. Bu yazıların hamısında Nəcməddin Mürvətovun şair obrazı xarakterizə olunur.

İlyas Tapdıq öz qeydlərində Nəcməddin Mürvətovun uzun illər bundan əvvəl bir ədəbi məclisdə çıxışından aldığı təəssüratla yazısını başlayır. Həmin yazı təkcə təəssürat xarakteri daşımır, həm də Nəcməddin Mürvətov haqqında əhatəli məlumat verir. Məlum olur ki, hələ gənc vaxtlarında ikən Nəcməddin Mürvətov ədəbi mühitdə kifayət qədər tanınıb. Xüsusilə şeirlərini əzbərdən və ifadəli oxusu ilə diqqəti cəlb edib: *"Məclisin sonuna yaxın qələm dostumuz Musa Ələkbərlinin bir neçə təkidli xahişindən sonra direktor - şair Nəcməddin Mürvətov da bir neçə şeirini əzbərdən oxudu. Məktəbin müəllim və şagirdləri onun hər şeirini alqışlarla qarşıladılar. Şeirlərdəki axıcılıq, məntiqi ardıcıllıq, mətləb və məna dürüstlüyü, xüsusilə də lakoniklik, konkretlik, riyazi dəqiqlik məni tutdu. İxtisasını soruşdum. "Riyaziyyat müəllimiyəm", - dedi. Zənnimdə yanılmamışdım. O, şairdi, özü də yaxşı şairdi, əsl şairdi. Tədbirdən sonra bir yerdə əyləşdik. Ədəbiyyat, poeziya haqqında nəzəri düşüncələri ilə də tanış oldum. Daha bir neçə şeirini də dinlədim:*

*Nə göncəyə vurulmusan,*
*Bacar, gülü solanda sev.*
*Duy həyatın nəfəsini,*
*Camı meysiz qalanda sev.*

*Eşqsiz gəzmə bircə an da,*
*Nə qədər ki, can var canda.*
*Qalmasın gözün cavanda*
*Yarı qarı olanda sev.*

*"Ayə, sənin nə vaxtındı "Yarı qarı olanda sev", - deyirsən. Zarafatımdan azca tutuldu. Onun təvazökarlığı, özünə, sözünə tələbkarlığı, poeziyaya bəslədiyi ilahi münasibət də gözümdən yayınmadı. Elə sonralar da bir neçə tədbirdə onunla görüşdük. Danışmaqdan çox dinləməyi xoşladığını, müsahibinə hörmətlə yanaşdığını bəyəndim".* İlyas Tapdıq Nəcməddin Mürvətovun 2-ci kitabına *"Ön söz"* yazıb. Əslində, bu qeydlər də elə həmin kitaba yazılmış *"Ön söz"*dən götürülüb. Görkəmli şair İlyas Tapdıq Nəcməddinin poeziyası ilə müəllimliyi arasında əlaqəni də görür. Bəzən şeirlərindəki nəsihətçilik, didaktik əlamətlərin də elə onun müəllimliyindən irəli gəldiyini qeyd edir.

Şair-publisist Səyavuş Sərxanlı müasirlərinin yaddaşında şairliyindən başqa həm də ağıllı natiq kimi qalıb. Səyavuş Sərxanlı öz qeydlərini *"Durna qatarında"* adlandırır və Nəcməddin Mürvətov haqqında danışmazdan əvvəl yazısına belə bir epiqraf da gətirir: *"Şair nigarançılıqdır, gecələr də yatmayan çaydır"*. Səyavuş Sərxanlının qeydləri nisbətən qısa və yığcamdır. O, Nəcməddin Mürvətovu birinci növbədə vətəndaş kimi xarakterizə edir: *"Hamı dünyaya gəlir, dünyadan getmək üçün. Dünyaya elə hünər sahibləri, elə yiyələri gəlir ki, haçansa çıxıb getmirlər, bu dünyanı, məkanı özlərinə əbədi yurd-yuva seçir, duyanqanan müsibətdən bəşəriyyətə çiyindaş, dərddaş, vətəndaş olurlar. Zənnimcə, bir belə uzun söhbətdən sonra yenə təkrar eləyirəm, şeirimizin gün işığı düşən tərəfindən apaydın görünən Nəcməddin Mürvətov kimi: o, getmək üçün gəlməyib, qalmaq üçün gəlib. Nəcməddin Mürvətovun dədə-baba yurduna yönü mənəvi qibləsidir. Nə vaxt doğma, Ələzə yolu düşürsə, imana-dinə gəlir:*

*Görüşünə gəlmişəm, bax*
*Quc, qucaqla məni, Ələz.*
*Ürəyimə qəlbimə ax,*
*Qov dumanı, çəni Ələz.*

*Qoy, qoynunda uyum, qalım,*
*Köks dolusu nəfəs alım.*
*Göylərində qanad çalım,*
*Gözə yığım səni, Ələz.*

*Əbədi poeziya gülüstanımızda yalnız öz səsi ilə, şehri ilə dərs dediyi şagirdlərinə canından işıq kimi, can kimi poeziya ağrısı kimi verdiyi ağrılarıyla...".* Məlumdur ki, Nəcməddin Mürvətov Xızının bir dağ kəndində doğulub. Səyavuş Sərxanlı da Nəcməddin Mürvətovun öz kəndi - Ələzi tərənnüm edən şeirindən nümunə gətirir. Zənnimizcə, Syavuş Sərxanlı Nəcməddin Mürvətovun təbiətindəki ilkinliyi, doğmalığı elə onun yerəyurda doğmalığı ilə bağlayır. Həqiqətən şair özünün yerini, yurdunu tərənnüm edirsə, deməli, onun yaddaşında öz yurdu əbədi sakindir.

Səyavuş Sərxanlı Nəcməddin Mürvətovu *"şeirimizin təzə bir bulağı"* adlandırırdı. Sadıq Elcanlı da Nəcməddin Mürvətovu yaxşı tanıyırdı, onun yaradıcılığına bələd idi. Özünün qeyd etdiyinə görə Nəcməddin Mürvətovla tez-tez görüşür, onunla həyat, cəmiyyət, təbiət haqqında fikirlərini bölüşürmüş. Ona görə də onun Nəcməddin Mürvətov haqqındakı qeydləri oxucuda çox səmimi bir təsir buraxır: *"Düşünürəm ki, "sifariş" sözü ədəbiyyat, bütövlükdə sənət baxımından o qədər də uğurlu ifadə deyil. Lakin söhbət hansısa qurumun, kapital sahibinin, yaxud sosial-siyasi qüvvənin yox, ürəklərin sifarişindən gedir. Bu, şairin, sənətkarın vətəndaşlıq borcunun diktə və tələb etdiyi sifarişdir. Bu sifarişi fəal vətəndaşlıq mövqeyi ilə dərk və qəbul etdiyi üçündür ki, N.Mürvətovun poeziyasında rəngsiz, reklamsız, qara-qışqırıqsız, vətənpərvərlik pafosu çox güclü və davamlıdır. O, Qarabağ, Xocalı soyqırımı, şəhidlər mövzusunda xeyli şeirin müəllifidir və bu əsərlər təkcə aktual tematikasına görə yox, həm də sənətkarlıq məziyyətləri ilə seçilir. Bu şeirlərin ana xətti, əsas ideya-bədii leytmotivi müvəqqəti məğlubiyyətlə barışmamağa, "Ya şəhid olmaq gərək, ya initqam almaq gərək" (M.Füzuli) inadı, inamı ilə səfərbər olub ayağa qalxmağa, işğalçı düşməni məhv edib Şuşada, Xocalıda, Xankəndində müqəddəs qələbə bayrağını ucaltmağa çağırışdır!*

*Hiddətlə silahlan, harayla bağır,*
*Çağır ərənləri, ərləri çağır.*
*Yağır göydən yerə, şimşəklər yağır,*
*Girək son döyüşə, gecikmək olmaz.*
*"Cəngi" çal, "Cəngi" çal,*
*"Cəngi", telli saz!*

*Bu şeirlər öz mübariz, döyüşkən qayəsi, vətəndaşlıq yanğısı ilə oxucuya, kütləyə, xalqa inam və ümid, optimist ruh yüksəkliyi aşılayır, cəsarət və səbirlə diktə və tələqin edir ki, məğlub milli-mənəvi durumla qalib gəlmək, haqq-ədalət savaşında müqəddəs qələbə zirvəsinəucalmaq olmaz".* Səmimi qeydlərdir və kifayət qədər Nəcməddin Mürvətovun poetik ruhunu duymaq üçün təəssürat yarada bilən qeydlərdir. Zənnimcə, kitabın tərtibçi-müəllifi Əli Rza Xələfli ayrı-ayrı müəlliflərin qeydlərini kitaba toplamaqda düzgün yol seçib. Bu həm də gələcək tədqiqatçıların işini asanlaşdırır. Biz kitabda professor Məhərrəm Qasımlının, filologiya üzrə fəlsəfə doktoru Rasim Nəbioğlunun qeydlərinə də rast gəlirik. Onların da təəssüratı kifayət qədər mükəmməldir. Və Nəcməddin Mürvətovun şair obrazını qavramaqda oxucuya yardımçı olur.

Vaqif Yusifli Nəcmədin Mürvətov haqqında danışarkən yazır: *"O şeirləri oxuduqca sanki bir sevgi hekayətini dinləyirsən və o şeirlərdə müəllif məişət dedi-qodularına uymur, mənasız küsməklərə, inciməklərə meyil eləmir, hər şey o sevgi hekayətinin axarında gözə dəyir. "Sevgimiz olsa da göl, ümman, dəniz, Sən mənsiz yaşadın, mən də ki sənsiz" - bu etiraf səmimidir, səni inandırır ki, ortalıqda ayrılıqlar dağ kimi ucalıb. O ucalan ayrılıq dağını isə qoparmaq, yıxmaq mümkün deyil. Çünki sevginin gözəlliyi də elə ayrılıqdadır. Ayrılıq mənəvi olanda, yəni iki insan bir-birinin həsrətini çəkə-çəkə bir-birindən uzaq olanda, ya da kövrəlində ayrılığın dadı bilinir. Yaşamaq, sevmək - bax elə budur!*

*Sıxıb boğazımı amansız qəhər,*
*Axır sifətimə gözümün yaşı.*
*Mümkünmü özümdən qaçım bir təhər,*
*Atım sinəmdəki o ağır daşı?*

*Şairin şeirləri içərisində saza, musiqiyə bir təşnəlik duyulur. Onun musiqi duyumu həm də şeirlərindəki musiqilik, ritm, ahəng, melodiya tempi yaradır".* Professor Qurban Bayramovun qeydləri özünəməxsus axar və ahənglə Nəcməddin Mürvətovun həyat yolunu birər-birər oxucu gözlərinin önündən keçirir. Yazısının sonluğunda o, qeyd edir: *"Qələm dostlarımdan birinin (Tehran Əlişanoğlunun) sözüdür, yerinə düşdüyündən misal gətirirəm: "İnsan ömür yaşayır, yazısı qalır...". Düşünürəm ki, mənim bu məqaləmin qəhrəmanı da - müəllim-şair-ziyalı Nəcməddin Mürvətov da, həm mənalı ziyalı ömrü yaşayır, həm də qələmə aldığı mənalı yazıları qalarıdır".* Göründüyü kimi, Qurban Bayramov da N.Mürvətovu öz şeirləri ilə yaşarı müəlliflər sırasında görür.

Azərbaycan Yazıçılar Birliyi Şabran rayon bölməsinin rəhbəri Aydın Tağıyev Nəcməddin Mürvətovu uzun illərdən bəri yaradıcılıq əlaqələri ilə tanıyır. O da şairi əsasən vətən sevgisi ilə xarakterizə edir: *"Nəcməddin Mürvətovun şeirlərində vətənə məhəbbət - vətənpərvərlik başlıca yer tutur:*

*Xəzərdən üzü Dübrara,*
*Təbim coşar baxsam hara,*
*Mən vurğunam bu diyara,*
*Artır qəlbdə odum, közüm,*
*Siyəzənim - şirin sözüm.*

*Şair üçün vətən təkcədoğma Siyəzən torpağı deyil, doğma Azərbaycanın hər qarışı, hər bucağıdır".* Bütün bu qeydlərin hamısında Nəcməddin Mürvətov vətənini, xalqını sevən, həqiqətə güvənçli şair kimi təqdim olunur. Professor Nizaməddin Şəmsizadə onu dünyanın qartımış, sərt sifəti ilə üz-üzə durmağı bacara, inadkar şair - vətəndaş adlandırır. Biz Müşfiq Cabiroğlunun, Ağacəfər Həsənlinin, Tofiq Nurəlinin, Sona Xəyalın, Şakir Əlifoğlunun... qeydlərindən nümunələr gətirə bilərdik. Amma elə deyilənlər də az deyil.

Mən ədəbi qeydlərimi çap etdiyim, birbaşa naşiri olduğum kitablar əsasında yazıram. Gözləyirəm ki, şair Nəcməddin Mürvətovun yeni kitabı da ünvanımıza gəlib çatsın. Əlbəttə, o indi həyatının daha müdrik, daha kamil çağlarını yaşayır.

Təbiətdə hər çiçəyin öz rəngi, ətri olduğu kimi, hər şair sözünün də ayrıca sirri, sehri var.

Həyat bizə ona görə verilmir ki, onu seyirçi bir nəzərlə yaşayaq. Həyat bizə ona görə qismət olur ki, biz həm də dəyərli sözdən zövq alaq.

***19.07.2022***